# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 36 (1496), 2 - 8 noyabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*


## Atletika III Avropa Oyunlarının proqramına daxil edildi

Avropa Olimpiya Komitələri (AOK) Polşada keçiriləcək üçüncü Avropa Oyunlarının proqramına atletikanın daxil edildiyini açıqlayıb.

Bununla bağlı AOK ilə Avropa Atletika Federasiyası arasında saziş imzalanıb. Atletika turnirinin komandalararası qitə çempionatı formatında keçiriləcəyi qərara alınıb. AOK-un rəhbəri Spiros Kapralos atletika üzrə turnirin III Avropa Oyunlarında ən populyar yarışlardan birinə çevriləcəyinə əminliyini bildirib.

Xatırladaq ki, atletika idman növü 2015-ci ildə Bakıda və 2019-cu ildə Minskdə təşkil olunan Avropa Oyunlarının proqramında da yer alıb.







## Rəşad Nəbiyev Azərbaycan Cüdo Federasiyasının yeni prezidenti seçilib

Noyabrın 1-də Gənclər və İdman Nazirliyində Azərbaycan Cüdo Federasiyasının növbədənkənar konfransı keçirilib.

Konfransda gənclər və idman naziri Fərid Qayıbov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, eləcə də Olimpiya və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Çingiz Hüseynzadə tədbirdə çıxış edərək ölkəmizdə cüdo idmanının inkişafından, federasiyanın prezidenti Rövnəq Abdullayevin rəhbərliyi altında əldə edilən uğurlardan danışıb.

Sonra federasiyanın prezidenti vəzifəsinə seçkilər keçirilib. Səsvermə nəticəsində Rəşad Nəbiyev Azərbaycan Cüdo Federasiyasının prezidenti seçilib.

Konfransda, həmçinin federasiyanın idarə heyətinin yeni tərkibi də müəyyənləşib. Belə ki, federasiyanın vitse-prezidenti vəzifəsinə Rövşən Rüstəmov və Elnur Məmmədli, İcraiyyə Komitəsi üzvlüyünə isə Ağayar Axundzadə, Raqif Abbasov, Asif Əsgərov, Nazim Hüseynov, Azər Əsgərov və Elxan Məmmədov seçiliblər.

Konfransda ACF-nin sabiq prezidenti Rövnəq Abdullayev çıxış edərək federasiyanın yeni rəhbərliyi və İcraiyyə Komitəsini təbrik edərək, uğurlar arzulayıb.

## Olimpizm

### Qış Olimpiya Oyunlarının medalları ictimaiyyətə təqdim olundu

Pekin-2022 Qış Olimpiya və Paralimpiya Oyunlarının başlamasına 100 gün qalmış oyunların medalları ictimaiyyətə təqdim olunub. Bu münasibətlə keçirilən mərasimdə Çin Baş nazirinin müavini Han Cen, Olimpiya çempionları Yan Yan və Can Yufey Pekin-2022 Qış Olimpiya Oyunlarının medallarını nümayiş etdiriblər. "Tonsin" ("Hamı bir nəfər kimi birlikdə") adlanan medalların üzərində Çin harmoniya fəlsəfəsini təcəssüm etdirən beş halqa və Pekin-2022-nin loqosu, digər üzündə isə Olimpiya halqalarının təsviri əks olunub.

Mərasimdə növbəti Qış Paralimpiya Oyunlarının medalları da təqdim olunub.

Qeyd edək ki, XXIV Qış Olimpiya Oyunları fevralın 4-20-də, Paralimpiya Oyunları isə martın 4-13-də Pekində və yaxınlıqdakı Canciakou şəhərində keçiriləcək. Pekin həm Yay, həm də Qış Olimpiya oyunlarına ev sahibliyi edəcək ilk şəhər olacaq. XXIX Yay Olimpiya Oyunları 2008-ci ildə bu şəhərdə keçirilib.

### Pekin-2022-nin Olimpiya kəndinin açılacağı tarix müəyyənləşdi

Pekin Qış Olimpiya Oyunlarının Olimpiya kəndinin açılışı yanvarın 27-nə planlaşdırılıb. Bu barədə Pekin-2022-nin Təşkilat Komitəsinin sədr müavini, Çin paytaxtı merinin müavini Cjan Cyandun mətbuat konfransında bildirib.

O deyib ki, dünyanın bütün ölkələrindən gələn idmançıları qarşılayacaq Olimpiya kəndinin rəsmi açılışı gələn il yanvarın 27-də baş tutacaq. Olimpiya məşəlinin estafeti isə fevralın 2-də başlayacaq.

Xatırladaq ki, Pekin Olimpiadasının məşəli oktyabrın 20-də Afinadan Çinin paytaxtına gətirilib.

### Kiberidman Olimpiya proqramına salınır?

Kiberidman Yay Olimpiya Oyunlarının proqramına salına bilər. Bu barədə Rusiya Kompüter Oyunları Federasiyasının prezidenti Dmitri Smit açıqlama verib. Onun sözlərinə görə, artıq bu istiqamətdə işlər gedir: "Şəxsən mən əminəm ki, kiberidmanın Olimpiya proqramına daxil edilməsi an məsələsidir. Çünki kiberidman çox böyük auditoriyaya malikdir".

Qeyd edək ki, növbəti Olimpiya Oyunları 2024-cü ildə Fransanın paytaxtı Parisdə təşkil olunacaq.

## Avropa Konfrans Liqası — H qrupu

**"Kayrat" - "Qarabağ"**

(Qazaxıstan) (Azərbaycan)

*4 noyabr. Almata Mərkəzi Stadionu. Almata. Saat 19:30.*


*3 boksçumuz dünya çempionatının 1/4 finalına vəsiqə qazandı* — Səh. 2

Unudulmayan sənətkarlarımızın idmanla bağlı maraqlı xatirələri — Səh. 3

*İdman və ədalət prinsipləri* — Səh. 6



*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




Gimnastika

## 32 ölkənin gimnastları paytaxtımızda yarışacaq




Milli Gimnastika Arenasının bu il ev sahibliyi edəcəyi sonuncu turnir batut gimnastikası üzrə 28-ci dünya yaş qrupları yarışları olacaq. Bakıda ilk dəfə keçiriləcək bu növ üzrə dünya çempionatından sonra Milli Gimnastika Arenasında gələcəyin batut ulduzları mükafatçılar sırasında yer almaq uğrunda mübarizə aparacaqlar. Noyabrın 25-28-də təşkil olunacaq yarışda, ilkin qeydiyyat siyahısına əsasən, 32 ölkədən 750 idmançının iştirak edəcəyi gözlənilir.

Gimnastlar həm batut, həm tamblinq, həm də ikili minibatut üzrə yarışlarda 11-12, 13-14, 15-16 və 17-21 yaş kateqoriyalarında mübarizə aparacaqlar.

Yarışda gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili minibatut üzrə proqramlarda çıxış edəcəklər. Bundan əlavə, komanda hesabında da qaliblər müəyyənləşəcək.

Yaş qrupları yarışlarında hər bir proqram üzrə təsnifat və final mərhələləri baş tutacaq. Qaydalara əsasən, bir iştirakçı bir neçə proqramda çıxış edə bilər.

## *Dünya çempionatında ölkəmizi 1 gimnast təmsil edəcək*

Noyabrın 18-21-də Bakıda ilk dəfə batut gimnastikası üzrə dünya çempionatı təşkil olunacaq. İkin qeydiyyat siyahısına əsasən, 33 ölkə yarışda iştirakını təsdiqləyib. Ölkəmizi yarışda Mixail Malkin təmsil edəcək. Dörd gün davam edəcək çempionatda gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili mini-batut üzrə proqramlarda çıxış edəcəklər. Bundan əlavə, komanda hesabında qaliblər müəyyənləşəcək.

Yarışların ilkin cədvəlinə əsasən, ilk iki gün təsnifat, sonuncu iki gün isə finallar keçiriləcək. Qaydalara əsasən, bir iştirakçı bir neçə proqramda çıxış edə bilər.

Çempionatda hər bir proqram üzrə təsnifat və final mərhələləri keçiriləcək.

## Millimizin məşqçisi bədii gimnastların rəsmi nümayəndəsi seçildi

Yaponiyanın Kitakyuşu şəhərində təşkil olunan bədii gimnastika üzrə dünya çempionatı çərçivəsində Beynəlxalq Gimanstika Federasiyasının (FİG) Atletlər Komissiyasının üzvlüyünə seçkilər keçirilib.

Azərbaycan Gimnastika Federasiyasından verilən xəbərə görə, bu seçkilərdə hazırda bədii gimnastika üzrə yığma komandamızın məşqçisi, Avropa çempionatının üçqat mükafatçısı, çoxsaylı beynəlxalq yarışların qalib və medalçısı Siyana Vasileva da öz namizədliyini irəli sürüb.

Oktyabrın 26-da keçirilmiş seçkilərin ilk mərhələsində ümumilikdə 6 ölkə təmsilçisi iştirak edib. İki gün sonra keçirilmiş son seçkilərdə isə 3 ölkə nümayəndəsi rəqabət aparıb. S.Vasileva rəqiblərini üstələyərək, bədii gimnastların rəsmi nümayəndəsi seçilib.




Azərbaycanın bədii gimnastika tarixində ilk dəfədir ki, təmsilçimiz Atletlər Komissiyasına üzv seçilib. Bədii gimnastların nümayəndəsi kimi, S.Vasileva avtomatik olaraq FİG-nin bədii gimnastika üzrə Texniki Komitəsinin iclaslarında atletləri təmsil edəcək. O, Atletlər Komissiyasının üzvü kimi fəaliyyətini 2022-ci il yanvarın 1-dən 2025-ci il dekabrın 31-dək davam etdirəcək.

## Komandamız Yaponiyada altıncı yeri tutdu

Olimpiya Oyunlarından iki ay sonra bədii gimnastlarımız yenidən “Gündoğan ölkə”də olublar. Bu dəfə qızlarımız dünya çempionatında iştirak etmək üçün Yaponiyanın Kitakyuşu şəhərinə yollanıblar. Azərbaycan Gimnastika Federasiyasından verilən xəbərə görə, dünya birinciliyində Azərbaycanı qrup hərəkətləri komandasının tərkibində Zeynəb Hümmətova, Darya Sorokina, Ləman Əlimuradova, Luzan Yelizaveta və Güllü Ağalarzadə, fərdi proqramda isə Zöhrə Ağamirova, Arzu Cəlilova və Nərmin Bayramova təmsil ediblər. Qrup komandamız hər iki proqram üzrə final mərhələsinə adlayıb. Həlledici mərhələdə qızlarımız həm 5 topla, həm də 3 halqa və 2 cüt gürzlərlə altıncı yerdə qərarlaşıblar. Çoxnövçülük yarışlarında da (iki çıxış proqram üzrə) qrupumuz altıncı olub.



Fərdi gimnastların yarışında hər dörd alətlə çıxış edən Tokio-2020 Olimpiadasının iştirakçısı Z.Ağamirova fərdi birincilikdə 24-cü olub. Ayrı-ayrı alətlərlə ən yaxşı çıxışını isə gürzlər və lentlə nümayiş etdirərək 21-ci yerdə qərarlaşıb.

Bu çempionat iki fərdi gimnastımız üçün debüt yarışı olub. Gənclər arasında keçirilmiş ilk dünya çempionatının ikiqat mükafatçısı A.Cəlilova və sonuncu Avropa çempionatının bürünc medalçısı N.Bayramova ilk dəfə dünya birinciliyində böyüklər arasında çıxış ediblər. Üç alətlə kompozisiyalarını nümayiş etdirən A.Cəlilova ən yaxşı nəticəsini topla göstərərək, 21-ci olub. İstedadlı gimnastımız çoxnövçülükdə 23-cü yerdə qərarlaşıb. N.Bayramova isə yalnız lentlə çıxış edərək, 41-ci olub.

Boks

## 3 boksçumuz dünya çempionatının 1/4 finalına vəsiqə qazandı

Serbiyanın paytaxtı Belqradda boks üzrə dünya çempionatında 1/8 final mərhələsinə start verilib. Mərhələnin ilk günündə Azərbaycan millisinin 4 üzvü rinqə çıxıb. Boksçumuz Alfonso Dominqes (86 kq) AİBA bayrağı altında çıxış edən Tavfiqulla Suleymanidən sonra rumıniyalı Pol Aradoae ilə qüvvəsini sınayıb. Avropa Oyunlarının qalibi bu dəfə də rəqibini 5:0 (29:28, 29:28, 29:28, 29:27, 29:28) hesabı ilə məğlub edib. O, 1/4 finalda rusiyalı Şarabutdin Atayevlə döyüşəcək. Görüş noyabrın 2-də baş tutacaq.



Yonas Yazeviçiusi (Litva) mübarizədən kənarlaşdıran Məhəmməd Abdullayev 1/8 finalda Vladan Babiçlə (Serbiya) üz-üzə gəlib. +92 kq çəki dərəcəsində gücünü yoxlayan təmsilçimiz döyüşü 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə aktivinə yazıb. Boksçumuz noyabrın 2-də təşkil olunacaq 1/4 finalda hindistanlı boksçu ilə üz-üzə gələcək.

Sərxan Əliyev (71 kq) startda Stefen Nevnsi (Şotlandiya) məğlub etdikdən sonra növbəti mərhələdə Yuta Akiyama (Yaponiya) ilə qüvvəsini sınayıb. Görüş boksçumuzun qələbəsi ilə yekunlaşıb - 5:0 (29:28, 29:28, 29:28, 30:27, 29:28). O da növbəti döyüşünü noyabrın 2-də keçirəcək. S.Əliyevin rəqibi ABŞ təmsilçisi Obed Barti olacaq.

İlk iki döyüşündə müvafiq olaraq Çarles Petit-Homm (Haiti) və Simone Spada (İtaliya) üzərində qələbə qazanan Tayfur Əliyev (60 kq) üçüncü sınağında Arslan Xatayevlə (Finlandiya) qarşılaşıb. Görüş rəqibin qələbəsi ilə yekunlaşdığından idmançımız çempionatla vidalaşıb.

Qeyd edək ki, dünya çempionatının səkkizinci günündə yığmamızın daha 2 boksçusu 1/8 final görüşünə çıxacaq. Məsud Yusifzadə (51 kq) puerto-rikolu Yankiel Rivera ilə, Mirşərif Kazımzadə (75 kq) özbəkistanlı Səidcəmşid Cəfərovla döyüşəcək.

Güləş

## Dünya Güləş Birliyinin konfransı keçirilib

Serbiyanın paytaxtı Belqradda Dünya Güləş Birliyinin (UWW) növbəti konfransı keçirilib. 23 yaşınadək güləşçilərin dünya çempionatı ərəfəsində təşkil olunan ənənəvi tədbirdə UWW-nin Büro üzvü, Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyev də iştirak edib.

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, son 4 ilin hesabatı haqqında danışan UWW-nin prezidenti Nenad Laloviç üzləşdikləri problemləri qabardıb:

“Pandemiya ilə əlaqədar yaranmış problemləri həll etmək üçün çoxlu müzakirələrimiz və iclaslarımız baş tutdu. Mən başa düşürəm ki, yerli federasiyalar bu durumdan necə əziyyət çəkib. Yarışların keçirilməsi, səfərlərin təşkili və maliyyə ilə bağlı problemlər var idi. Hətta mayda belə Olimpiadanın və dünya çempionatının keçiriləcəyindən əmin deyildik. Bu çətin vəziyyətdə işini uğurla icra edən tibbi heyətə də təşəkkürümü bildirirəm. Olimpiya Oyunları yaxşı keçdi. Tokioda güləşçilər fantastik görüşlər keçirdi. Yeniyetmələr, gənclər və böyüklər arasında dünya çempionatlarının təşkilatçılığına görə Macarıstan, Rusiya və Norveç Güləş federasiyalarına minnətdaram. Etiraf edim ki, bir ay əvvəl U-23 dünya çempionatını təxirə salmaq barədə fikirləşirdim. Çünki Serbiyada gündəlik koronavirusa yoluxma sayı xeyli artmışdı. Təşkilatçılar və yerli federasiya ilə müzakirələr apardıq. Yekunda yarışı keçirmək mümkün oldu”.

Daha sonra ali qurumun təbliyində olan komissiyaların rəhbərləri çıxış edərək hesabat veriblər.

Paralimpiya

## Milli Paralimpiya Komitəsində yeni təyinatlar olub

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) İcraiyyə Komitəsinin iclası keçirilib. İclasda Afiq Süleymanov komitənin fəxri vitse-prezidenti seçilib. Eyni zamanda, məşqçilər şurası və nizam-intizam komissiyasının heyətləri təsdiqlənib, həmçinin Qarabağ qaziləri ilə iş və idman seleksiyası üzrə komissiya yaradılıb.

Komitənin vitse-prezidenti İlham Zəkiyev nizam-intizam komissiyasının rəhbəri, baş katibi Kamal Məmmədov isə məşqçilər şurasının sədri təyin ediliblər. Qarabağ qaziləri ilə iş və idman seleksiyası komissiyasının tərkibinin formalaşdırılması AMPK-nın fəxri vitse-prezidenti A.Süleymanova tapşırılıb.

Qılıncoynatma

## Təmsilçimiz ümumrusiya yarışında fərqlənib



Moskva ətrafındakı Novoqorsk şəhərində qılıncoynatma idmanının sablya növü üzrə ümumrusiya yarışı keçirilib. 2021-2022-ci il mövsümünün açılışı hesab edilən yarışda Azərbaycan yığmasının üzvü Anna Başta da iştirak edib. Təmsilçimiz turnirdə uğurla çıxış edərək ikinci yeri tutub. Yalnız moskvalı Svetlana Şevelevadan geri qalan A.Başta Moskva təmsilçiləri Vlada Plexabova və Yevgeniya Podpaskovanı qabaqlayaraq, gümüş medala sahib olub.

# OLİMPİYA 20 DÜNYASI



*20 illik yubileyinə hazırlaşan "Olimpiya dünyası" qəzeti müxtəlif illərdə geniş oxucu marağına səbəb olan yazılardan ən yaddaqalan məqamları dərc etməkdə davam edir. Qəzetimizin ötən sayında "İdmançı sənət, sənətçi idman" rubrikası altında bir vaxtlar unudulmaz mərhum sənətkarlarımızla hazırladığımız müsahibələrdən bir neçəsini dərc etmişdik. Bu sayımızda da ənənəni davam etdirərək, Xalq şairi Musa Yaqub və Xalq artisti Oqtay Zülfüqarov ilə müsahibələrdə yer alan idmanla bağlı xatirələri diqqətinizə çatdırırıq. Mərhum sənətkarlarımızın bu sahə ilə bağlı fikirləri heç zaman yaddaşlardan silinməyəcək.*

# Unudulmayan sənətkarlarımızın idmanla bağlı maraqlı xatirələri

## Musa Yaqub: "İdmanla bağlı əsərlər, şer və hekayələr yazmaq üçün yazıçının idmançıların keçirdiyi hissləri dərindən duyması lazımdır"



"Mən hər gün idman edirəm. Səhər gimnastikasını çox sevirəm. Ən çox da yeriməyi xoşlayıram. İdman cansağlığına, ömrü uzatmağa xidmət edir. Odur ki, hamı bir nəfər kimi idmanla məşğul olmalıdır. İndi idmanla məşğul olmaq daha asandır. Çünki ölkəmizdə bunun üçün hər bir şərait var. Nəinki paytaxtımızda, rayonlarada da müasir tələblərə cavab verən idman kompleksləri inşa edilib. Bu gün Azərbaycanda idmançıların sayı ötən illərlə müqayisədə daha çoxdur. Bunun da səbəbi idmana göstərilən yüksək dövlət qayğısıdır. Gənc nəsil bu şəraitdən istifadə etməyi bacarmalıdır. Belə imkan harada var? İdman məktəbləri, klubları idmanın inkişafına xidmət edir, uşaqlar idmanın bütün növləri ilə məşğul ola bilirlər. Mənim 18 yaşında Gəray adlı bir nəvəm var. O, boksla məşğul olur. Dəfələrlə yarışlarda mükafatalayiq yerlər tutub. Baba kimi nəvəmlə fəxr edirəm. Günki nəvəm böyük idman arenalarında Azərbaycanın bayrağını qaldırır. Həm də ona görə qürur duyuram ki, Gərayın ürəyində vətəninə, bayrağına böyük məhəbbət var".

### "Hər bir idmançının qələbəsi onun vətəninin, ölkəsinin qələbəsidir"

"Əgər idmançıda vətənə məhəbbət hissi olmasa o, rəqibinə qalib gələ bilməz. Çünki idman vasitəsilə ölkələr tanınır. Bu, həm ölkələr arasındakı dostluğa, həmrəyliyə, həm də idmançının vətənini tanıtmasına xidmət edir. Hər bir insan üçün bayraq müqəddəsdir. Himnimizin beynəlxalq yarışlarda səslənməsi insanda qürur hissi yaradır. İdmançıların hamısı vətənini sevən, bayrağına, torpağına bağlı insanlardır. İdmançılar bütün uğurlarını əziyyət, alın təri və halal zəhmətləri sayəsində qazanırlar. Hər bir idmançının qələbəsi onun vətəninin, ölkəsinin qələbəsidir".

### "Əvvəllər boks yarışlarını seyr edərdim"

"Mən boks idman növünə maraq göstərmişəm. Əvvəllər boks yarışlarını seyr edərdim. Güləş də bizim qədim idman növümüz olduğuna görə bu idmana da marağım az deyil. Cüdoçuların çıxışlarına baxmağı da xoşlayıram. Dörd il öncə Pekində keçirilən Olimpiya oyunlarında Elnur Məmmədlinin Olimpiya cempionu adını qazanması gənc nəsildə cüdoya böyük maraq yaratmışdı. Belə idmançılar idmanı gələcək nəsillərə də sevdirirlər. Londonda keçirilən Yay Olimpiya Oyunlarında da idmançılarımız ümumilikdə 10 medal qazanıblar. Onlardan ikisi qızıl medaldır. Mən bu xəbəri mavi ekrandan eşidəndə sevincimin həddi-hüdudu yox idi".

### "Yaradıcı insanlar ən çox hiss etdikləri duyğuları dilə gətirirlər"

"Futbola da marağım az deyil. Tanınmış futbol klublarının oyunlarını izləməyi sevirəm. Futbolu bütün kişilər sevir. Milli komandalarımızın oyunlarına da baxmağa çalışıram. Ölkəmizdə futbolun daha da yüksək səviyyədə inkişaf etməsini, yığmamızın dünyanın ən tanınmış komandaları ilə bir stadionu paylaşmasını arzulayıram. Gənclik illərində futbol yarışlarına baxmağa gedərdim. Dost-tanışlarla axşamlar futbola getmək çox maraqlı olardı. İndi cavanların dəstə-dəstə stadiona futbol izləməyə getdiklərini görəndə cavanlığım yadıma düşür. Cavanlar kimi stadiona gedə bilməsəm də, oyunları mavi ekranda izləyirəm. İstərdim ki, uşaqlarımız idmanla müntəzəm məşğul olsunlar. Qazanılan qələbələr məni də bir vətəndaş kimi ruhlandırır. İdmanla bağlı əsərlər, şeir və hekayələr yazmaq üçün yazıçının idmançının keçirdiyi hissləri dərindən duyması lazımdır. Bəlkə də, idmanla



bağlı əsərlər yaza bilməməyimin səbəbi idmançı olmamağımdır. Bütün yaradıcı insanlar ən çox hiss etdikləri duyğuları dilə gətirirlər".



## Oqtay Zülfüqarov: "İdman mahnılarına olan marağım, bəlkə də, idmançı keçmişimlə əlaqədardır"

"Mənim uşaqlıq, gənclik illərim idmanla sıx bağlı olub. Futbol, boks, voleybol idman növləri ilə məşğul olmuşam. İdmanla məşğul olmaq mənim həm hobbim, həm də həyatımın ayrılmaz hissəsidir. Moskva şəhərində nümayiş olunan "Leyla və onun dostları ", "Salam Leyla "adlı filmlərdə mənim mahnılarım da yer alırdı. Bu mahnılar idmanla bağlı idi və bu günə qədər də dillər əzbəridir. Mahnının sözləri belədir:

Kim sevirsə idmanı
Bir, iki, üç, dörd.
Poladdan olar canı,
Bir, iki, üç, dörd.

Mən bu mahnını 1951-ci ildə yazmışam. O tarixdən bu günə qədər mahnı dillər əzbəridir. Yenə də idmanla, uşaqlarla bağlı mahnılar yazmağı düşünürəm".

### "Hər kəs uşaqları düşünməli, onlara xidmət göstərməlidir"

"İdmanla məşğul olmağım mahnıların yaranmasında da öz köməyini göstərir. İdman mahnılarına olan marağım, bəlkə də, idmançı keçmişimlə əlaqədardır. Mən şou xarakterli mahnıları sevmirəm. İndi bütün televiziya ekranlarında şou verilişləri, bayağı mahnılar yer almaqdadır. Bunun qarşısı alınmalıdır. Gənclərə, uşaqlara, idmana xidmət edən mahnılara daha çox yer vermək lazımdır. Mən idman verilişlərini, idman haqqında yazılan mahnıları böyük zövqlə dinləyirəm. Hazırda uşaqlar üçün balet yazıram. Onlar bizim gələcəyimizdir. Hər kəs uşaqları düşünməli, onlara xidmət göstərməlidir. Mənim də əlimdən gələn onlara mahnılar yazmaqdır.

### "Uşaqlar kiçik yaşlarından inkişaf edir"

"Bu gün uşaq mahnıları, şeirləri azlıq təşkil edir. Uşaq idmanına isə daha yaxşı fikir verilir. Mən istəyərdim ki, onlara göstərilən diqqət daha çox olsun. İdman sahəsində bu diqqət yüksək səviyyədədir. Belə ki, uşaqlar üçün müasir standartlara cavab verən idman ocaqları, idman zalları, komplekslər fəaliyyət göstərir. Hər insan uşaq yaşlarından idmanla məşğul olarsa, bunun xeyirini görər. Uşaqlar kiçik yaşlarından inkişaf edir. Hərəkətin onlar üçün faydası böyükdür. Bütün uşaqları idmanla məşğul olmağa çağırıram".

## Azərbaycanlı məşqçilərə “Gümüş Şüalı Gündoğar Ordeni” təqdim edildi



Yaponiyanın Azərbaycandakı səfirinin iqamətgahında Azərbaycanın cüdo üzrə iki məşqçisinin - “Kano-kan TT” peşəkar cüdo idman klubunun prezidenti Tərlan Həsənov və cüdo üzrə paralimpiya yığma komandasının keçmiş baş məşqçisi Əhməddin Rəcəblinin Yaponiya hökumətinin “Gümüş Şüalı Gündoğar Ordeni” (The Order of the Rising Sun, Silver Rays) ilə təltif olunma mərasimi keçirilib.

Əvvəlcə Yaponiyanın və Azərbaycanın Dövlət himnləri səsləndirilib. Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada mərasimdə çıxış edərək Yaponiya və Azərbaycan arasındakı dostluq əlaqələrindən danışıb: “Ölkələrimiz arasında güclü dostluq əlaqələri var. Azərbaycanın müstəqilliyinin 30 illiyinin qeyd edildiyi əlamətdar bir vaxtda mükafatlandırma mərasiminin təşkili xüsusi əhəmiyyət kəsb edir”.

Səfir Azərbaycan və Yaponiya hökumətləri arasında əməkdaşlığın bundan sonra da davam edəcəyinə əmin olduğunu bildirib.

Sonra Cuniçi Vada “Gümüş Şüalı Gündoğar Ordeni”ni (The Order of the Rising Sun, Silver Rays) T.Həsnov və Ə.Rəcəbliyə təqdim edib.

Tərlan Həsənov və Əhməddin Rəcəbli çıxış edərək yüksək mükafat üçün minnətdarlıq edib, gələcəkdə də cüdonun inkişafına öz töhfələrini verəcəklərini bildiriblər.

Azərbaycanın ilk cüdoçularından biri olan T.Həsənov 1972-ci ildən məşqçi kimi çalışır. Məşqçi kimi fəaliyyəti dövründə çoxlu sayda istedadlı cüdoçular yetişdirən Tərlan Həsənov, eyni zamanda, üç beynəlxalq dərəcəli hakim və çoxsaylı məşqçilər ərsəyə gətirib. Uzun müddət cüdo üzrə məşqçilik fəaliyyəti ilə bu idman növünün inkişafına öz töhfələrini verib.

Yüksək mükafatla təltif edilən Ə.Rəcəbli də Azərbaycanda cüdonun yayılmasının ilk günlərindən fəaliyyət göstərib və məşqçi kimi yüzlərlə idmançı yetişdirib. İkiqat Paralimpiya çempionu İlham Zəkiyevin Paralimpiya Oyunlarında qazandığı uğurlarda onun xüsusi əməyi olub. Əhməddin Rəcəbli Azərbaycanda cüdo və paracüdonun inkişafına əvəzsiz töhfələr verib.

## *Karateçilərimiz Çexiyada beynəlxalq turnirdə uğurla çıxış ediblər*

Karate üzrə milli komandamızın üzvü İrina Zaretska Çexiyanın Plzen şəhərində keçirilmiş beynəlxalq turnirin ikiqat qalibi olub.

O, həm 68 kiloqram çəki dərəcəsində, həm də mütləq çəkidə bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

“Qara Qaplan” klubunun üzvü Veronika Qaşnikova isə 47 kiloqram çəki dərəcəsində birinci yeri tutub.

Karateçilərimiz beynəlxalq turnirdə qadınlardan ibarət yığma komandanın baş məşqçisi Denis Morozovun rəhbərliyi altında iştirak ediblər.

## *Vətən müharibəsinin qazisi Tələbə Gənclər Təşkilatının sədri seçildi*



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) Tələbə Gənclər Təşkilatının sədri vəzifəsinə seçki keçirilib. Səsvermə nəticəsində İkinci Qarabağ müharibəsinin qazisi, akademiyanın magistrantı Elnur Əkbərov səs çoxluğu ilə ADBTİA-nın Tələbə Gənclər Təşkilatının sədri vəzifəsinə seçilib.

Vətən müharibəsi qazisi Elnur Əkbərov Füzuli istiqamətində gedən döyüşlərdə ağır yaralanaraq qolunu itirib. O, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda göstərdiyi rəşadətə görə “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

## “Böyük Dəbilqə” turnirində 33 cüdoçumuz yarışacaq

***Noyabrın 5-7-də paytaxtımız daha bir mötəbər yarışa - cüdo üzrə “Böyük dəbilqə” turnirinə ev sahibliyi edəcək. Yarışda 30 ölkəni təmsil edən 201 (130 kişi, 71 qadın) cüdoçu qüvvəsini sınayacaq.***




Turnirin ev sahibi olan Azərbaycan millisinin heyətində dəyişiklik olub. Belə ki, kişi cüdoçularımızdan ibarət əsas komandamız Bakıda keçiriləcək “Böyük Dəbilqə”də 20 deyil, 25 idmançı ilə təmsil olunacaq.

Baş məşqçi Mövlud Mirəliyev qeydiyyatın son günündə daha beş cüdoçunun adını sifariş verib. Bunlar Tofiq Məmmədov (66 kq), Rüfət Məmmədov (73 kq), Hasil Cəfərov (81 kq), Kənan Abdullaxanlı (100 kq) və Hüseyn Məmmədovdur (+100 kq).

Onlara kimi isə Balabəy Ağayev, Turan Bayramov, Əhməd Yusifov, Rövşən Əliyev (hamısı 60 kq), İbrahim Əliyev, Orxan Səfərov, İsmayıl İbrahimov (hər üçü 66 kq), Hidayət Heydərov, Rüstəm Orucov, Telman Vəliyev (hər üçü 73 kq), Elcan Hacıyev, Kərim Məmmədov, Ömər Rəcəbli (hər üçü 81 kq), Rüfət İsmayılov, Məmmədəli Mehdiyev, Vüqar Talıbov (hər üçü 90 kq), Ruslan Nəsirli, Adil Kərimli (hər ikisi 100 kq), Uşanqi Kokauri və Camal Feyziyevin (hər ikisi +100 kq) “Böyük Dəbilqə”də iştirakı təsdiqlənmişdi.

Qeyd edək ki, qadınlardan ibarət komandamızın heyətində Aişə Qurbanlı, Şəfəq Həmidova (48 kq), Ülviyyə Bayramova, Zeynəb Məmmədova (52 kq), İcinxorlu Munxtsedev (57 kq), Aytac Qardaşxanlı (63 kq), Günel Həsənli və Südabə Ağayeva (hər ikisi 70 kq) yer alacaqlar.

## *Avropa çempionatına yollanacaq heyət müəyyənləşdi*

Noyabrın 5-də Macarıstanın paytaxtı Budapeştdə 23 yaşınadək cüdoçular arasında Avropa çempionatı start götürəcək. Yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayacaqlar. Gənclər arasında keçiriləcək qitə çempionatında ümumilikdə 8 cüdoçumuz qüvvəsini sınayacaq. Belə ki, kişilərin yarışında Elçin Hüseynov (66 kq), Zelim Tckayev, Məhərrəm İmamverdiyev




(81 kq), İmran Yusifov (+100 kq) iştirak edəcəklər. Qadınların turnirində isə təmsilçilərimiz Aydan Vəliyeva, Ramilə Əliyeva (48 kq), Səbinə Əliyeva (52 kq) və Nərgiz Hacıyeva (63 kq) yarışacaqlar.

Noyabrın 7-dək davam edəcək yarışda 39 ölkədən 300-dən çox cüdoçu iştirakını təsdiqləyib.

## *Daxili İşlər Nazirliyinin idmançılarından uğurlu nəticə*

Daxili İşlər Nazirliyinin idmançıları İtaliyanın Cesolo şəhərində keçirilən kikboksinq üzrə böyüklər arasında WAKO versiyası üzrə dünya çempionatında mübarizə aparıblar.

Nazirliyin İdman Cəmiyyəti yarışlarda WAKO Lo-Kick versiyası üzrə böyük məşqçi, gənclər və yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi, Əməkdar məşqçi, Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyevin rəhbərliyi altında 6 idmançı ilə təmsil olunub.

Görüşlərdə Azərbaycan Kikboks Federasiyasının birinci vitse-prezidenti, WAKO versiyası üzrə dünya çempionu, peşəkar döyüşlərin qalibi Ramal Aslanov Rusiya, Xorvatiya və Qırğızıstan idmançılarını məğlub edərək final mərhələsinə vəsiqə qazanıb. Finalda qələbənin hakimlərin qərarı ilə rəqibə verilməsindən sonra idmançımız gümüş medalla kifayətlənməli olub.

DİN İdman Cəmiyyətini təmsil edən digər idmançılar - Hüseyn Hacıyev onaltıdabir, Elməddin Baxşəliyev isə səkkizdəbir finalda mübarizəni dayandırıblar. Əsgər Rəhimov və Məhəmməd İmanov isə Vətənə bürünc medallarla qayıdıblar.

Veteranların yarışında İdman Cəmiyyətinin baş inspektoru, polis polkovnik-leytenantı Eduard Məmmədov 63 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxıb. İlk döyüşdə italiyalı idmançıya 15 xal üstünlüyü ilə vaxtından tez qalib gələn idmançımız ikinci qarşılaşmada Avstriya təmsilçisini məğlub edib. Finalda Ukrayna idmançısını yarışdan kənarlaşdıran E.Məmmədov qızıl medal qazanıb. Bununla da veteran idmançı WAKO versiya üzrə 6-cı, ümumilikdə isə bütün versiyalar üzrə 26-cı dəfə dünya çempionu olub.

Vətən müharibəsindən sonra ilk yarışına çıxan E.Məmmədov bu qələbəsini şəhidlərimizin xatirəsinə həsr etdiyini bildirib.

## *Avropa çempionatından bürünc medal*

Gürcüstanın Bakuriani şəhərində Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının (IBSA) təşkilatçılığı ilə pouerliftinq üzrə Avropa və dünya çempionatları təşkil olunub.

Azərbaycan Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, təmsilçimiz Məhərrəm Qasımov Avropa çempionatında bürünc medal qazanıb.

Qeyd edək ki, görmə məhdudiyyətli idmançılar arasında təşkil olunan yarışda Azərbaycan ilk dəfə iştirak edib.



## Məşqçi-müəllimlər üçün seminar təşkil olunub

Tekvondo üzrə məşqçi-müəllimlər üçün seminar təşkil olunub. Onlayn formatda keçirilən seminar Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Nağı Səfərov, texniki direktor Oh Kvanq Çeolun rəhbərliyi ilə Etibar İbrahimov, Ramal Camalov, Ələkbər İmaməliyev, Məmməd Abdullayev, Səbuhi Zülfüqarov, Elnur Amanov və Gündüz Abdullayev tərəfindən təşkil edilib.

Seminarın ilk günündə Etibar İbrahimov və Ramal Camalov iştirakçıları poomse, sonrakı günündə Ələkbər İmaməliyev, Məmməd Abdullayev, Səbuhi Zülfüqarov və Elnur Amanov döyüş qaydaları, üçüncü günündə isə Gündüz Abdullayev hakimlik qaydaları ilə tanış ediblər.

## Zəfər Gününə həsr olunmuş tədbirlər

# Qılıncoynatma yarışının qalibləri müəyyənləşib

Yasamal rayon Gənclər və İdman İdarəsi tərəfindən Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan ənənəvi idman tədbirləri davam edir. Yasamal rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Qılıncoynatma Federasiyasının birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidləri "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid Denis Əliyevin, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuş Dmitriy Solnsevin xatirəsinə həsr olunmuş qılıncoynatma üzrə turnirin final mərhələsi yekunlaşıb. Tədbirdə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Olimpiya Çempionu Zemfira Meftaxetdinova, 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin direktoru Əjdər Cəfərov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Yasamal rayon Təşkilatının sədri Bəhram Şeydayev çıxış etmiş, Vətən müharibəsi şəhidlərinin xatirəsini ehtiramla yad ediblər.



Qaliblərin təntənəli mükafatlandırılma mərasimində Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov çıxış edərək Müzəffər ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini yaşatmaq və gənclər arasında təbliğ etmək məqsədi ilə idarə tərəfindən təsdiq edilmiş xüsusi tədbirlər planına müvafiq olaraq keçirilmiş turnirlərin önəmindən danışıb.

Sonda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri çıxış edərək vətən oğullarımızın keçdiyi şərəfli döyüş yolundan, onların tükənməz Vətən sevgisindən danışıblar.

40 nəfərədək idmançının iştirak etdiyi turnirində Ruslan Həsənov qalibi adını qazanıb. Fərrux Səfərov, Barat Quliyev və Fuad Qurbanov mükafatçılar sırasında yer alıblar.

# Peşəkar boks gecəsi turnirinin qalibləri müəyyənləşdi

Oktyabrın 30-da Bakı İdman Sarayında 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Qarapapaq" peşəkar boks gecəsi yarışı keçirilib. Boks gecəsinin açılış mərasimində Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Açılış mərasimində çıxış edən "Qarapapaq Fight Club & Promotion"un prezidenti Aqil Acalov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı böyük Qələbədən danışıb.

Aqil Acalov peşəkar boksun Azərbaycanda inkişafından danışaraq qeyd edib ki, son illər ərzində peşəkar boks üzrə ölkəmizdə bir sıra yarışlar keçirilib. "Qarapapaq" peşəkar boks gecəsində istedadlı rinq ustalarının iştirak etdiyini vurğulayan Aqil Acalov bu cür yarışların keçirilməsində məqsədin həm də peşəkar boksçuların yarış təcrübəsini zənginləşdirmək olduğunu bildirib.



Sonra "Olimpik Pro"nun təsisçiləri Rüfət Həsənov, Arif Zeynalov, boks üzrə dünya çempionu, Azərbaycan Peşəkar Boks Federasiyasının birinci vitse-prezidenti Fərhad Acalov çıxış edərək ölkəmizdə peşəkar boksun gələcək perspektivlərindən danışıblar. Daha sonra yarışa start verilib.

Qeyd edək ki, yarış Azərbaycan Peşəkar Boks Federasiyasının dəstəyi, "Qarapapaq Fight Club & Promotion" və "Olimpik Pro"nun təşkilatçılığı ilə keçirilib. Turnirdə orta və ağır çəkilərdə 18 peşəkar boksçu ümumilikdə 9 döyüş keçirib. Yekun nəticələrə görə, müxtəlif çəki dərəcələrində Novruz Hüseynov, Taryel Cəfərov, Əzrək Bəbirov, Kənan Kazımov, Nihat Abdullayev, Ruslan Məmmədov, Rauf Ağayev, Fuad Tarverdi qalib elan olunublar. Pərvin Heydərov-Nicat Həsənov qarşılaşması isə heç-heçə ilə başa çatıb.

## *Şəhər çempionatında fərqlənənlər respublika finalı vəsiqə qazanıblar*

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) Zəfər Gününə həsr olunan "Vətənin müdafiəsinə hazıram" devizi altında poliatlon çoxnövçülüyü üzrə Bakı şəhər çempionatı təşkil edib. Çağırışa qədər və çağırış yaşlı gənclərin ümumi və vətənpərvərliyini bütün dünyaya nümayiş etdirdiyi vurğulanıb.

Çempionatda yeniyetmə və gənclər 100 və 2000 metr məsafələrə qaçış, turnikdə dartınma və qumbara atma yarışlarında mübarizə aparıblar. Yarışın yekununda Xətai, Binəqədi və Suraxanı rayonlarını təmsil edən komandalar müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar. Komanda və fərdi yarışların qalibləri mükafatlandırılıblar. Həmçinin ilk iki yerdə qərarlaşan komandalar və idmançılar Xaçmaz rayonunda keçiriləcək respublika finalında iştirak hüququ qazanıblar.

fiziki hazırlıq səviyyələrinin artırılması, gənclərə vətənpərvərlik ruhunun aşılanması məqsədilə keçirilən çempionatın açılış mərasimindəki çıxışlarda Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərində parlaq Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsinin Ordumuzun gücünü, xalqımızın Qələbə əzmini və

# Sumqayıt reqbiçilərindən uğurlu çıxış

Gəncədə reqbi-7 üzrə yeniyetmələr arasında açıq kuboku yarışı keçirilib. Yarış Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Reqbi Federasiyasının və Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Gəncə şəhər stadionunda təşkil olunub. Yarışın açılış mərasimində Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi, Azərbaycan Reqbi Federasiyasının İdarə Heyətinin üzvü Həmid Nəsirov, Azərbaycan Reqbi Federasiyasının 1-ci vitse-prezidenti Elvar Osmanov, Gənclər və İdman Nazirliyinin İdman Şöbəsinin məsul işçisi, Reqbi Federasiyasının baş katibi Əlniyaz Mirzəyev, Gənclər və idman Naziriliyinin İdman



Şöbəsinin əməkdaşı Pərvin Mehdiyev və Vətən müharibəsi iştirakçıları çıxış ediblər.

2005-2006-cı il təvəllüdlü reqbiçilərin iştirak etdiyi yarışda Gəncə, Sumqayıt, Naftalan, Göygöl və Şəmkir komandaları yarışıblar.

Yekun nəticələr əsəsən Sumqayıt komandası birinci, Gəncə komandası isə ikinci yeri tutub. Şəmkir komandası isə üçüncü yerlə kifayətlənib.

Qaliblər diplomlar və kuboklarla mükafatlandırılmışdır.

## *İdman könüllüləri arasında basketbol yarışına yekun vuruldu*

Oktyabr 29-30-da Sumqayıt şəhər 7 saylı tam orta məktəbdə 3x3 baskebol üzrə idman könüllüləri arasında Zəfər Gününə həsr edilmiş turnir keçirilib.

Ümumilikdə 6 komandanın iştirakı ilə keçirilən turnirdə 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman məktəbinin könüllülərdən ibarət komandası birinci yeri tutub. Sumqayıt Könülləri Cəmiyyətinin komandası ikinci, cüdo könüllülərinin komandası isə üçüncü yerlə kifayətlənib.

Yarışın qalib və mükafatçıları şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən medal, fəxri fərman və hədiyyələrlə təltif olunublar.



## 35 şahmatçının mübarizəsi davam edir

Oktyabrın 29-da "Təhsil " Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Şahmat Məktəbinin təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş turnir start götürüb.

"Təhsil " Respublika İdman Mərkəzi, Şahmat Federasiyasının dəstəyi ilə keçirilən 7 turdan ibarət turnir İsveçrə sistemi üzrə keçirilir. Beynəlxalq reytinq turnirində ikisi beynəlxalq usta olmaqla, 35 şahmatçı iştirak edir. Yarışın son turu və bağlanış mərasimi noyabrın 5-də keçiriləcək.

## Çempionluq üçün 8,5 xal kifayət edib



Ucarda 8 Noyabr - Zəfər Günü münasibətilə İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş şahmat turniri keçirilib.

Doqquz turun nəticəsinə görə 8,5 xal toplayan Yusif Allahverdiyev yarışda birinci yeri tutub. Musa Xəlilov, Xəzər Məmmədzadə yeddi xalla ikinci və üçüncü yerlərə layiq görülüb.

İsveçrə sistemi üzrə keçirilən yarışda 50-dən çox şahmatçı iştirak edib.

## Teymur Rəcəbov FİDE reytinqində geriləDİ

Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb. Bu dəfə ilk "10-luq"da Azərbaycan təmsilçiləri yer almayıblar.

Qrossmeysterlərimizdən Şəhriyar Məmmədyarov 2765 xalla 11-ci pillədəki mövqeyini qoruyub. 2763 xalı olan Teymur Rəcəbov isə 1 pillə geriləyərək, 13-cü sırada qərarlaşıb.

Rauf Məmmədov (2673) 3 pillə geriləyərək 61-ci sıraya enib. 2665 xalı olan Qədir Hüseynov 74-cü yerə geriləyib. Nicat Abbasov isə ilk "100-lüy"ü tərk edib.

Siyahının ilk üçlüyündə də dəyişiklik baş verib. Norveçli dünya çempionu Maqnus Karlsen (2855) yenə də birinci pillədəki mövqeyini qoruyub. Aktivindəki xalların sayını 2799-a çatdıran çinli Dinq Liren 2-ci pilləyə yüksəlib. Fabiano Karuana (ABŞ, 2800) isə üçüncüdür.

Qadın şahmatçılardan Günay Məmmədzadə (2459) 25-ci pillədəki mövqeyini qoruyub. Gülnar Məmmədova (2395) 64-cü, Xanım Balacayeva isə (2369) 91-cidir.

## Qrossmeysterimiz "Titled Tuesday Blitz" turnirinin növbəti mərhələsinin qalibi oldu



Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov "Titled Tuesday Blitz" turnirinin növbəti mərhələsinin qalibi olub. 11 turdan 10 xal toplayan şahmatçımız bütün rəqiblərini geridə qoyub. Digər şahmatçılarımızdan Loğman Quliyev 7,5, Azər Mirzəyev 6,5 xal toplayıblar.

İsveçrə sistemi üzrə keçirilən yarışda 500-ə yaxın şahmatçı iştirak edib.

İdmanla bağlı düşüncələr



Mobil İSMAYILOV

> *İnsana xoşbəxtlik qapısını ədalət açır.*
> *Platon*

# İdman və ədalət prinsipləri

***Sirr deyildir ki, etdiyimiz əməllər, gördüyümüz işlər ilahi bir ədalət tərəfindən izlənilir və hər kəs də bu ədalətin tərəzisindəki fərqə görə cavab verir. Gec-tez, amma bu, hökmən baş verir. Biz görməsək də, bilməsək də, zaman həmişə ədaləti bərpa edir. Bu, mütləqdir.***

## "Biz həmişə əxlaqi dəyərlərə söykənməliyik"

Həyatın bütün sferalarında olduğu kimi, idman dünyasında da belədir. Ona görə idman sahəsində də haqqın tapdalanması, hüquqların pozulması ilə bağlı neqativ hallar görəndə, susmaq olmaz. İçimizdəki ədalət hissi baş qaldırmasa, öz sözünü deməsə, xoşagəlməz hallar davam edəcək. Biz şüurumuzu, əxlaqımızı, baxışımızı ədalət prinsipləri üstündə kökləməliyik. Onda cəzalara, cərimələrə də ehtiyac qalmaz.

Ədalət normaları bir kateqoriya kimi heç vaxt zamandan, dövrdən asılı olmur. Əslində bu, normal haldır və belə də olmalıdır. Biz həmişə əxlaqi dəyərlərə söykənməliyik. Ədalət daim öz sözünü deməlidir. Ədalət şüurlara, evlərə, stadionlara, idman təşkilatlarına, federasiyalara daşınmalıdır. Yalnız bu halda idmana bağlılığı olan səlahiyyət sahibləri ədalətsizlik etməkdən çəkinəcəklər. Məsələn, danışılmış, nəticəsi şübhə doğuran oyunların da illər keçdikdən sonra üstü açılır. Xidməti araşdırmalar başlayır, hətta məsələ gedib məhkəmələrə qədər çıxır. Elə bu da ədalətin təntənəsidir.



## "VAR sisteminin futbola daxil olması ədalət prinsiplərinin qorunmasını təmin edir"

FİFA-nın və UEFA-nın yüksək ranqlı məmurlarının fəaliyyəti barədə araşdırmaların aparılmasını götürək. Korrupsiya ilə bağlı iddiaların olması, dünya çempionatının keçirilməsində ev sahibliyinin Qətərə verilməsinə görə səsvermədə səslərin satılması və sair bu kimi halların kütləvi informasiya vasitələrinə yol tapması idman həvəskarlarının yəqin ki, yadındadır. Nəticə etibarı ilə yenə də ədalət öz sözünü dedi. Belə ki, irəli sürülən faktlar qismən təsdiqini tapdı.

Futbolda oyunçular bəzən vaxtı uzatmaq, yaxud cərimə zərbəsi qazanmaq üçün bilərəkdən yıxılır, özlərini guya zədə almış kimi göstərirlər. Belə hallarda hakimlər simulyasiyaya görə həmin futbolçulara haqlı olaraq sarı kart göstərirlər ki, bu da həm də ədalətin təzahürü kimi qiymətləndirilə bilər.

2014-cü ilin dünya çempionatında FİFA ilk dəfə olaraq yeni sistem tətbiq etdi. Belə ki, topun qapı xəttini keçib-keçməməsi ilə əlaqədar həmişə yaranan mübahisələrə birdəfəlik son qoyuldu. VAR sisteminin ilk cihazı olan, Almaniyada istehsal edilmiş "Gool kontrol-4D" aparatı topun qapıdan keçdiyini dəqiq qeydə aldığından heç kimdə şübhə yeri qalmırdı. Bu gün VAR sisteminin daha da təkmilləşərək, futbola daxil olması ədalət prinsiplərinin qorunmasını təmin edir.

Yeri gəlmişkən müasir dövrdə voleybol oyununda da mübahisəli vəziyyət yarandığı hallarda, məşqçilərin tələbi ilə istənilən epizodun təkrarına baxmaq mümkündür.

## "Oyunda zədələnən futbolçuya təzminatın ödənilməsi də ədalət prinsiplərinə uyğundur"

Son dövrlərdə ali futbol qurumlarının irqçiliyə qarşı gördüyü tədbirlər də müsbət dəyərləndirilməlidir. Stadionlarda və internet şəbəkələrində irqçi şüarların səsləndirilməsinə görə indi sərt qərarlar (böyük məbləğdə cərimələrdən tutmuş, klubun stadionunun bağlanmasına qədər - red) qəbul edilir. Bütün bunlar da ədalət normalarının pozulmasının qarşısının alınmasına xidmət edir.

2012-ci ildən başlayaraq FİFA milli komandada oynadığı vaxt zədələnən futbolçular üçün təzminat ödənilməsindən ötrü qərar qəbul etmişdir. Bu proses zədələnən futbolçuların klublarına sığorta pulu verilməsi yolu ilə həyata keçirilir. FİFA futbolçuların qazancını 365-ə bölərək onların gündəlik gəlirlərini müəyyənləşdirikdən sonra zədəli olduğu günlər üçün ödəmə edir. Yoldaşlıq və ya rəsmi matçlardan asılı olmayaraq ödəmə bir il ərzində icra edilir. Bu qaydada təzminatın ödənilməsi də ədalət prinsiplərinə uyğundur.

## "İdmançı yarışda ata zədələr vurduğuna görə cəzalandırıldı"

Belə də deyirlər ki, ədalət hərdən bərqərar olur. Görəsən, doğrudanmı belədir?

Aşağıda bir neçə nümunə gətirməklə bu sualın cavabını oxucuların öhdəsinə buraxıram.

1999-cu ildə güclü alman atçapanı Rene Tebbel atçılıq idmanının konkur növündə (maneələri dəf etmə) bir neçə iri miqyaslı və nüfuzlu yarışların qalibi olmuşdu. Buna baxmayaraq onu 2000-ci ildə Sidneydə keçirilən Olimpiya Oyunlarında iştirak etmək üçün Almaniya yığma komandasının tərkibinə daxil etmədilər. İdmançı ata zədələr vurduğuna görə cəzalandırıldı. Tebbel Beynəlxalq atçapma idmanı federasiyası tərəfindən 2 min dollar cərimə edilərək yarışlardan kənarlaşdırıldı. Buna səbəb onun "Persi" ləqəbli atını incitməsi və işgəncəyə məruz qoyması olmuşdu. Belə ki, "Olimpiya ili"nin əvvəlində Ştutqartda keçirilən yarışda təkcə təşkilatçılar deyil, hakimlər və müşahidəçilər də gördülər ki, atın ayaqlarında dərin kəsilmiş yaralar və zədələr vardır. Mütəxəssislər yekdil olaraq belə qərara gəldilər ki, Rene Tebbel qəsdən maneələrin dəf edilmə anlarında atın ayaqlarının daha hündürə qalxmasından ötrü atına belə zədələr yetirmişdir. Beynəlxalq federasiyanın qərarı düzgün və ədalətli hesab olundu. Bununla kifayətlənməyən Almaniya heyvanları mühafizə cəmiyyəti idmançını "sadist" hesab etdi və təyin olunan cəzanı yüngül qiymətləndirərək ona daha ağır cəza verilməsi məsələsini qaldırdı. Göründüyü kimi, bu fakt məsələyə ədalətlə yanaşmanın ən yaxşı təzahürlərindən biridir.



2000-ci ildə qadınlar arasında fiqurlu konkisürmə yarışları üzrə Rusiya çempionatı sensasiyalı sonluqla başa çatdı. Dəfələrlə dünya və Avropa çempionu olmuş tanınmış idmançı Mariya Butırskaya heç kimin gözləmədiyi halda ölkə çempionu adını nisbətən az təcrübəli, elə də titulları olmayan İrina Slutskayaya verdi. Elə həmin gün də məlum oldu ki, yarışa start verilməsindən bir neçə saat əvvəl Butırskayanın şəxsi "BMW" markalı avtomaşını evinin qarşısında partladılmışdır. Mütəxəssislər Mariyanın məğlubiyyətinin səbəbini baş vermiş bu xoşagəlməz hadisə ilə əlaqələndirdilər. Mariya özü də bildirdi ki, şokdan ayılmamış buz üzərinə çıxmışdı. Onun tanınmış məşqçisi Yelena Çaykovskaya jurnalistlərə müsahibəsində qeyd etdi ki, görünür kriminal artıq fiqurlu konkisürmə idman növünə də "baş vurmuşdur". Bu partlayış onu göstərir ki, kriminal ünsürlər bu idman növünün hətta dərinliklərinə də gedib çatıblar və artıq nəticələrə də təsir etməyi bacarırlar. Mariyanın uğursuzluğunu tam partlayış hadisəsi ilə bağlayan məşqçi ardıcıl müsahibələrində ciddi təşviş hissi keçirdiyini və çox təəssüfləndiyini deyirdi. Sonradan kütləvi informasiya vasitələrində İrinanın qələbəsinə kölgə salan yazılar getdi.



Nəhayət, hüquq-mühafizə orqanlarının apardıqları istintaq araşdırmalarından sonra bəlli oldu ki, həmin gün avtomaşının partladılması Mariyanın "Pleybol" jurnalında fotomodel kimi çalışması, yəni şəxsi məsələ ilə bağlıdır və idmançı fəaliyyəti ilə heç bir səbəbli əlaqəsi yoxdur.

Layiqli qələbə qazanan İrina Slutskaya sonralar ölkə çempionu adını ardıcıl bir neçə il özündə saxlaması ilə yanaşı, eyni zamanda bir neçə dəfə dünya və Avropa çempionu olmağı da bacardı. Dalbadal iki olimpiadada qalib gəlməsi isə onun ən böyük uğuru oldu. Mariya Butırskaya isə 2003-cü ildə məşğul olduğu idman növündən ayrıldı.

Bu epizodda da ədalət prinsiplərinin yenə öndə olmasını sezmək heç də çətin deyildir.

*(ardı var)*

# F U T B O L

*Futbol üzrə Azərbaycan Premyer Liqasında IX turun oyunları keçirilib. Günün ilk matçında "Zirə" komandası "Keşlə"ni qəbul edib. Qarşılaşma meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. "Qartallar"ın heyətində 17-ci dəqiqədə Loris Bronyo, 42-ci dəqiqədə isə Ağabala Ramazanov fərqlənib.*



## "Qarabağ" derbidə böyükhesablı qələbə qazanıb

Qələbə sayəsində xalların sayını 15-ə çatdıran "Zirə" 3-cü pillədəki "Qəbələ"yə çatıb. 7 xala malik "Keşlə" isə 7-ci sırada qərarlaşıb. 90+4-cü dəqiqədə "Keşlə"nin futbolçusu Tural Axundov rəqibə qarşı kobudluq etdiyi üçün qırmızı vərəqə alaraq meydandan qovulub.

IX turun mərkəzi görüşü "Qarabağ" və son çempion "Neftçi" arasında olub. "Azersun Arena"da təşkil olunan qarşılaşma Ağdam təmsilçisinin 4:0 hesablı qələbəsi ilə başa çatıb. Görüşə "köhlən atlar" daha üstün başlayıb. 10-cu dəqiqədə Filip Ozobiç meydan sahiblərini hesabda önə keçirib. 4 dəqiqə sonra isə Abdullah Zubir "ağ-qaralar"ı növbəti dəfə mərkəzə dəvət edib. Ozobiç 23-cü dəqiqədə penaltini dəqiq yerinə yetirməklə özünün ikinci, komandasının isə üçüncü qolunu vurub.



"Neftçi"nin müdafiəçisi Ömər Buludov 37-ci dəqiqədə zədələndiyi üçün görüşə davam edə bilməyib. Onun yerinə meydana İsmayıl Zülfüqarlı daxil olub. 90+2-ci dəqiqədə Marko Vesoviç komandasının 4-cü qoluna imza atıb.

Bu nəticədən sonra xallarının sayını 20-yə çatdıran "Qarabağ" vahid lider olub. Son çempion isə 17 xalla ikinci sırada yer alıb.

Turun növbəti oyun günündə "Qəbələ" klubu doğma meydanda "Sabah"la qarşılaşıb. Qəbələ şəhər stadionunda oynanılan qarşılaşma qonaqların 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Matçda hesabı paytaxt təmsilçisi açıb. 20-ci dəqiqədə Coy-Lens Mikels fərqlənib. 40-cı dəqiqədə Fofana Tiemoko fərqi 2 topa çatdırıb. 63-cü dəqiqədə Aleksey İsayev baxımlı qolla əyalət təmsilçisini 3-cü dəfə meydanın mərkəzinə dəvət edib. Qarşılaşmada son nöqtəni isə 69-cu dəqiqədə penaltidən İsnik Alimi qoyub.

Bu mövsüm ölkə çempionatında ardıcıl 2-ci qələbəsini qazanan "Sabah" 7 xalla sonuncu pillədə qalıb. 15 xalı olan "Qəbələ" isə 3-cü sıradadır.

Turun son oyununda "Sumqayıt" komandası "Səbail"i qəbul edib. "Kapital Bank Arena"dakı görüş meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Qarşılaşmada hesab matçın 37-ci dəqiqəsində açılıb. Rəhim Sadıxov cərimə zərbəsindən baxımlı qolla "gənclik şəhəri" təmsilçisini önə çıxarıb. 74-cü dəqiqədə Səid Rza matçda yekun hesabı müəyyənləşdirib.

63-cü dəqiqədə qonaqların hücumçusu Nikolas Raysel rəqibin müdafiəçisi Höccət Haqverdiyə başı ilə zərbə vurduğu üçün qırmızı vərəqə alaraq, meydandan qovulub.

6 oyundan sonra qələbə qazanan "Sumqayıt" xallarını 11-ə çatdıraraq, turnir cədvəlində "Səbail"i qabaqlayıb və 5-ci pilləyə yüksəlib. 9 xalı olan "dənizçilər" isə 6-cı sırada qərarlaşıb.

## Azərbaycan Premyer Liqasının X turu "Zəfər turu" elan edildi

ZƏFƏR TURU

Peşəkar Futbol Liqası (PFL) Vətən müharibəsində şanlı Qələbənin birinci ildönümü münasibətilə futbol üzrə Azərbaycan çempionatının - Premyer Liqanın X turunun "Zəfər turu" elan olunması barədə qərar qəbul edib. Bu barədə PFL məlumat yayıb. Futbol üzrə Azərbaycan çempionatının X turunun oyunları noyabrın 6-7-də keçiriləcək.

## "Araz-Naxçıvan" mübarizəni davam etdirir

Futzal üzrə Çempionlar Liqasında əsas mərhələyə yekun vurulub. Ölkəmizi turnirdə təmsil edən "Araz-Naxçıvan" oktyabrın 31-də qrupda sonuncu oyununu keçirib.

Təmsilçimiz Kosovanın "Liqeni" komandası ilə qarşılaşıb. İlk iki turda 3 xal qazanan Joze Alesio da Silvanın yetirmələri qollarını Felipinyo, Maneka, Ramiz Çovdarov və David Qustavo vurublar.

Oyunun sonları gərgin anlarla yadda qalıb. Son saniyələrdə dava düşən oyunda "Liqeni"dən 3, "Araz-Naxçıvan"dan isə 1 nəfər qırmızı vərəqə alıb.



İsa Atayevin dubl etdiyi oyunda "Araz-Naxçıvan"ın digər üçün kosovolularla görüş formal xarakter daşıyıb. Çünki hesabında 6 xal olan "Uraqan" "Araz-Naxçıvan"la "Liqeni"ni məğlub etdiyindən, şəxsi oyunlardakı üstünlüyə görə, birinci yeri - Elit-raunda vəsiqəni rəsmiləşdirib. Gərgin və maraqlı mübarizə şəraitində keçən oyun 6:6 hesablı heç-heçə ilə başa çatıb.

Bu heç-heçədən sonra xallarını 4-ə çatdıran Azərbaycan çempionu qrupu ikinci pillədə başa vurub. Eyni xala malik "Liqeni" isə üçüncü olub. Ukraynanın "Uraqan" komandası isə qrup lideri kimi turnirin növbəti mərhələsinə vəsiqə qazanıb.

Qeyd edək ki, "Araz-Naxçıvan" ilk iki oyunda "Uraqan"a məğlub olub (1:2), "Yunayted Qalati"yə qalib gəlib (5:3).

## "Sabah"ın yeni baş məşqçisi müəyyənləşdi

"Sabah" Futbol Klubunda yeni baş məşqçi təyinatı gerçəkləşib. Rusiyalı Murad Musayev əsas komandanın baş məşqçisi təyin edilib. Otuz yeddi yaşlı mütəxəssislə iki illik müqavilə imzalanıb. O, komandada işinə gələn həftə başlayacaq.



Qeyd edək ki, Murad Musayev 2005-ci ildə Rusiya "Krasnodar"ının akademiyasında işə başlayıb. O, əsas komandada 2018-ci ildən çalışmasına rəğmən, Pro lisenziyası olmadığından, baş məşqçi postuna rəsmən 2020-ci ilin iyununda təyinat alıb. Komanda 2018/2019-cu il mövsümündə M.Musayevin rəhbərliyi altında tarixində ikinci dəfə Rusiya Premyer Liqasında bürünc medal qazanıb. Krasnodar təmsilçisi növbəti mövsüm UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksəlib və UEFA Avropa Liqasında səkkizdəbir finaladək irəliləyib. Mütəxəssis aprelin 3-də "Axmat"a 0:5 hesablı məğlubiyyətdən sonra istefaya göndərilib.



## 400-cü qola sərt reaksiya

İtaliyanın "Milan" klubunun futbolçuları Zlatan İbrahimoviç və Frank Kessi A Seriyasında XI turun "Roma" ilə səfər oyunu zamanı irqçiliyə məruz qalıb. Belə ki, yerli fanatlar Zlatanı "qaraçı" adlandırıblar. Tərəfdarlar Kessinin Nikolo Zanioloya qarşı kobudluq etməsindən sonra meymun səsi çıxarıblar.

Qeyd edək ki, qarşılaşma "Milan"ın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. "Rossonerilər"in qollarını Kessi və İbrahimoviç vurub. Lakin bu görüş 40 yaşlı hücumçu üçün yaddaqalan olub. Cərimə zərbəsindən fərqlənən Zlatan A Seriyasında 150-ci, karyerasında 400-cü qolu vurub.

## KONMEBOL ölkələri FİFA ilə razılaşmır

Cənubi Amerika Futbol Konfederasiyası (KONMEBOL) ölkələri dünya çempionatının iki ildən bir keçirilməsi ideyasına reaksiya bildiriblər.

KONMEBOL FİFA-nın bu planına qarşı olduğunu bəyan edib. Hətta belə olacağı təqdirdə Cənubi Amerika komandalarının mundiala qatılmayacağı rəsmən açıqlanıb: "KONMEBOL şurası dünya çempionatının iki ildən bir keçirilməsi təklifini bir daha nəzərdən keçirdi. FİFA-nın irəli sürdüyü dəyişikliklər üçün heç bir səbəb, üstünlük və ya əsaslandırma yoxdur. Bununla əlaqədar olaraq, KONMEBOL-a üzv olan 10 ölkə iki ildən bir keçirilən dünya çempionatında iştirak etməyəcəyini təsdiqləyib".

FİFA prezidenti Canni İnfantino 2026-cı ildən etibarən dünya çempionatının iki ildən bir keçirilməsini istəyir. O, hətta yarışların təqvimini bütün milli assosiasiyalara da göndərib.

Qeyd edək ki, KONMEBOL ölkələri Braziliya, Argentina, Ekvador, Kolumbiya, Uruqvay, Çili, Boliviya, Paraqvay, Peru və Venesueladır.

## Messi "Barselona" üçün darıxır

Fransanın PSJ futbol komandasının hücumçusu Lionel Messi İspaniyanın "Barselona" klubuna idman direktoru kimi qayıtmaq istədiyini bildirib.

"Mən həmişə demişəm ki, əgər kluba bacardığım qədər kömək edə bilsəm, çox şad olaram. İdman direktoru olmaq istəyirəm. Bilmirəm, bu "Barselona"da baş verəcək, ya yox. Amma belə bir şey mümkünsə, kömək etmək üçün geri qayıtmaq istərdim, çünki sevdiyim klubdur və o, qaydasında olsa, çox xoşbəxt olacam", - deyə Messi "Sport.es"ə bildirib.

Avqustun 10-da PSJ Lionel Messi ilə müqavilə imzaladığını rəsmən elan edib. Müqavilə 2023-cü ilə qədər qüvvədədir. Fransanın "L equipe" nəşrinin məlumatına görə, argentinalı ilk ildə 30 milyon avro qazanacaq. Məbləğ yaxın iki ildə bonus sayəsində 10 milyon avro artacaq.

# Dünya idmanı



## İspan tennisçinin 97 yaşlı rəqibi



İspaniyalı məşhur tennisçi Rafael Nadal 97 yaşlı ukraynalı həmkarı Leonid Stanislavski ilə tennis oynayıb. Görüş Malyorkadakı akademiyada baş tutub. Stanislavski yarışlarda iştirak edən ən yaşlı tennisçi hesab edilir.

Qeyd edək ki, hazırda dünya sıralamasında 5-ci olan Rafael Nadal Böyük Dəbilqə seriyalı turnirlərin 20 dəfə qalibi olub.



## "Dəmir Mayk" rinqə qayıdır

Boks üzrə keçmiş dünya çempionu Mayk Tayson yenidən rinqə qayıdacağı vaxtı açıqlayıb. "Dəmir Mayk" "The Sun" nəşrinə açıqlamasında gələn ilin əvvəlində döyüş keçirmək istədiyini bildirib. O, hələlik rəqibini müəyyənləşdirmədiyini söyləyib: "Fevralda döyüşmək istəyirəm. Hazırda rəqiblə bağlı xeyli şübhələrimiz var. Bu, ciddi çağırış olmalıdır".

İddiaya görə, Taysonun rəqibi Ceyk və ya Loqan Pol qardaşlarından biri ola bilər. Hər iki blogger artıq boksda debüt ediblər.

Keçmiş boksçu bildirib ki, yüksək qonorar qarşılığında "youtube" fenomeni olan qardaşlarla qarşılaşa bilər.

Qeyd edək ki, Mayk Tayson peşəkar karyerasını bitirdikdən sonra ilk döyüşünü ötən ilin noyabrında digər keçmiş dünya çempionu Roy Consa qarşı keçirib. Görüş heç-heçə yekunlaşıb.




olimpnews.az - sizin saytınız




## Basketbolçunun ayaqqabıları üçün rekord qiymət

Əfsanəvi basketbolçu Maykl Cordanın geyindiyi idman ayaqqabıları hərracda rekord qiymətə satılıb. Hərrac Las-Veqasda keçirilib. Əfsanəvi basketbolçu sözügedən idman ayaqqabısını 1984-cü ildə "Çikaqo Buls"la ilk mövsümündə meydana çıxarkən geyinib.



Keçirilən hərracda idman ayaqqabısı 1,47 milyon dollara satılıb. Bu rəqəm idman ayaqqabıları üçün ödənilmiş ən yüksək məbləğ kimi rekord təşkil edib.

## "Qızıl top"u Levandovski alacaq?

"France Football" nəşrinin təsis etdiyi "Qızıl top" mükafatının qalibi üçün səsvermənin nəticələrini əks etdirən foto yayılıb. Sosial şəbəkələrdə yayılan fotoya əsasən, Polşa millisinin və Almaniyanın "Bavariya" klubunun futbolçusu Robert Levandovski qalib olacaq. 33 yaşlı hücumçunun 627 səsi var. İkinci sırada Fransa PSJ-sində çıxış edən Lionel Messi, üçüncü yerdə isə Madrid "Real"ından Kərim Benzema qərarlaşıb.

Səsvermə oktyabrın 24-də başa çatıb. Lakin qalibin adı noyabrın 29-da Parisdə açıqlanacaq.

Qeyd edək ki, "France Football" nəşri koronavirus pandemiyasına görə ötən il mükafatı heç bir oyunçuya verməyib. "Qızıl top"u sonuncu dəfə 2019-cu ildə hazırda Fransa PSJ-sində çıxış edən Lionel Messi qazanıb.




## Əfsanəvi futbolçu "Vanda Metropolitano"da əbədi qalacaq

"Atletiko"nun keçmiş futbolçusu və baş məşqçisi Luis Araqonesin şərəfinə ucaldılan heykəlin açılışı olub. Heykəl komandanın stadionu olan "Vanda Metropolitano"da ucaldılıb. Abidənin hazırlanması və quraşdırılması üçün vəsait Madrid klubunun azarkeşləri tərəfindən toplanıb. Açılış mərasimində "Atletiko"nun hazırkı və keçmiş heyət üzvləri, baş məşqçi Dieqo Simeone, klub prezidenti Enrike Serezo və əfsanəvi mütəxəssisin ailə üzvləri iştirak edib.

## Premyer Liqada yeni qalmaqal

İngiltərə Premyer Liqasında çıxış edən futbolçulara kütləvi şəkildə saxta koronavirus peyvəndi sertifikatları təklif edilir. Dörd klub fırıldaqçıların 1,86 milyon avro müqabilində oyunçularla əlaqə saxladığını təsdiqləyib. İdmançıların bunu qəbul edib-etmədiyi hələlik bəlli deyil. Bir sıra klub rəsmiləri futbolçuların onları məsələ ilə bağlı məlumatlandırdığını söyləyib.

Fazil Hadıbəyov, Cəfər Hümbətov, Mahmud Hüseynov, Hafiz Abıyev, Aslan Abıyev və Murad Fərzəliyev Saleh Yusifova, atası

**Musa Yusifovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19